возможности человека. Во-вторых, то, что некоторые западноевропейские исследователи называли декадентством (упадочничеством) «личного мироощущения» в действительности есть умонастроения эпохи, которые искусственно притягивали к тексту гриновских произведений. Речь же должна идти о массовой ментальности Англии послевоенного времени, нашедшей своё отражение не только в художественной литературе, но и в литературоведении.

Раздел 2.2. раскрывает сюжетно-композиционные особенности романов Г.Грина «Сила и слава», «Суть дела». Некоторые критики уделяли этому вопросу известное внимание. Скажем, Н.Жлуктенко (1980-е годы), обобщая структуру большинства романов Грина, отмечает единство их художественной системы. Общая картина мироздания, созданная своеобразной композицией, по его мнению, включает в себя, прежде всего единый принцип изображения реальной исторической действительности. В качестве его внутренних подразделов учёный выделяет единый тип конфликта, сконцентрированный на ситуации нравственного выбора личности, свойственное большинству романов Г.Грина. Магия философских проблем его творчества состоит «в поразительной достоверности индивидуального опыта и в то же время в универсальном, общечеловеческом значении каждой истории душевной борьбы его непростых героев». Из данного определения Жлуктенко выводит общую композиционную модель практически всех произведений Грэма Грина, которую он называет «конрадовской».

Спустя десятилетие (1990-е годы) к вопросам поэтики и композиции романов Г.Грина обратилась С.Филюшкина. В работе «Литературные аллюзии и реминисценции в художественной системе Грэма Грина» она указала на своеобразие внутренней структуры определённой части его сочинений. С.Филюшкина, в частности, выяснила: Г.Грин стремится к такому обобщению изображаемых ситуаций, что позволяет искусно типизировать героев, подводя указанное под некую модель человеческого поведения. Причём, критик полагает, что «типизация здесь особого рода, она строится отнюдь не по принципу Бальзака, сообщающего нам, что Растиньяк поступил так, как в его случае поступили бы тысячи юношей его положения. В отличие от французского реалиста, Грэм Грин не стремится подвести частный факт под общую закономерность, но

воссоздает модель поведения, психологического состояния». Кроме того, в композиции большинства романов С.Филюшкина выделяет реминисценции и аллюзии как приёмы, существенно расширяющие временное пространство реальности, включающие события, которые ярко и рельефно характеризуют культурный и мировоззренческий контекст мировой истории.

Учитывая ценные замечания Жлуктенко и Филюшкиной, мы посчитали возможным создание собственной модели (или схемы), охватывающей сюжет и композицию романов «Суть дела», «Сила и слава». Прежде всего, выявлена авторская позиция на основе отбора ситуаций и отдельных художественных деталей. Каждая такая деталь становится той литературной реалией, которая в основе своей призвана активизировать воображение читателя.

Создание настоящей сюжетно-композиционной модели предусматривало решительный отход от виртуозной техники диалогов (чем грешила критика давних советских времён) в противовес доминированию реалистического отображения действительности. А именно: конечная цель писателя – освещение наиболее важных и актуальных проблем эпохи, носящих универсальный характер.

Гриновские универсалии, по нашему убеждению, создаются не столько техническими средствами, сколько с помощью утверждения морально-этических проблем, волнующих писателя и всё человечество. В романах «Сила и слава», «Суть дела» это в первую очередь острые современные социальные конфликты. Кроме того, это концентрация повествования на ситуативном начале. То есть, поведенческая модель литературных героев строится на базе обращения автора к их судьбам. Техническая же сторона вопроса заключается в наличии фрагментарности как одного из композиционных стержней в названных произведениях. Иными словами, одной из излюбленных сюжетно-композиционных деталей, применяемых Г.Грином в романах «Сила и слава», «Суть дела» и некоторых других, является распадение повествования на ряд эпизодов, своеобразных фрагментов-очерков судьбы и внутреннего мира героев.

Может сложиться впечатление, что мы тем самым постулируем мысли писателей-модернистов, а не реалистов. Но не всё так односложно. Дело в том, что фрагментарность – фрагментарности рознь. Общеизвестно, что модернизм во всех его обличьях и

модификациях представляет собой отъединённое от реалистических основ художественное мышление. Оно доподлинно расколото, разорвано на отдельные повествовательные куски, а потому и «фрагментарно». Однако в модернизме эти установки односторонне схватывают и обращают внимание читателей деформированной картиной мироздания, которая, собственно, и «раскалывает» сюжет на отдельные «осколки». Это временами утяжеляет стиль

Совершенно иное назначение имеет фрагментарность повествования в реалистических произведениях. Структура указанных романов Г.Грина, прежде всего, основана на внутренней связи. Общее правило, на наш взгляд, таково: техника размещения отдельных текстовых слоёв как органики композиции демонстрирует авторское мастерство не ради словесной эквилибристики, что свойственно русскому и европейскому постмодернизму, а подчинено задачам выражения исторической и социальной проблематики. Другими словами, внешняя оболочка разорванной композиции, разбросанности отдельных фрагментов несёт на себе отпечаток неустойчивого психического состояния героев, которые, почти всегда у писателя мечутся в своих идейных исканиях. Это подтверждается нами рядом примеров, взятых из текста романов «Сила и слава», «Суть дела».

В задачу заключительного раздела диссертации (2.3) входит указание на реалистические особенности социальных, идеологических и мировых проблем в тех же романах Г.Грина. Современные русские и европейские литературоведы чаще сходятся во мнении, что романы Г.Грина прежде всего социально-психологические, а начиная с «Тихого американца», – ещё и социально-политические. Более того, практически всеми исследователями отмечается драматический характер творчества Грина. Идеологические, социальные и мировые проблемы в дальнейшем ставятся почти повсеместно. В работах В.Ивашёвой 1960-1970-х годов они составляют главный объект внимания. В 1980-х годах Г.Аникин, солидарный с В.Ивашевой в том, что большая часть произведений Грэма Грина носит реалистический характер, устанавливал: драматические коллизии романов обусловлены «мрачными обстоятельствами капиталистического мира», что в принципе лишний раз подтверждает мнение русской исследовательницы в отношении мастерства Грина-реалиста.

Вслед за В.Ивашёвой, Г.Аникиным и некоторыми другими С.Филюшкина в 1990-х годах также отмечала, что социальные и

идеологические проблемы, к которым многократно обращается Г.Грин, свидетельствуют о строго реалистической направленности его раннего и позднего творчества. Современный английский критик Роулэнд Смит также обратил внимание на то, что в ряде романов Г.Грина чётко просматривается патриотическая тематика, подняты актуальные социальные и идеологические вопросы. Р.Смит имел в виду такие произведения, как «Министерство страха», «Суть дела», «Конец романа». Так, в работе «A People's War in Greeneland» он пишет о том, насколько важны в этих и других его произведениях социальный, политический и идеологический контексты. В романах 1945-1955 годов, подчёркивает Р.Смит, тем более ярко отражено «характерное ощущение компромиссности и расколотости» окружающей обстановки по сравнению с довоенной прозой. Это успешно воплощено в романах «Министерство страха», «Сила и слава», написанных в течение военных и первых послевоенных лет, одновременно с ощущением живости и возбуждения, которые стали частью Британской жизни с июня 1940 года до следующей весны. В романах, написанных после войны, активность и возбуждение сменяются разочарованностью, утратой веры в себя.

Далее, в основном тексте диссертации развёрнута полемика вокруг вопроса о «возрастающем социальном опыте читателя». По Грину, это значит, что писателя интересует в человеке (литературном герое) не столько то, что определено в нём его социальной принадлежностью, сколько *то, что* делает человека выше его социально-исторической обусловленности. Таким образом, можно прийти к выводу, что лаконизм гриновского повествования обусловлен, прежде всего, реалистической направленностью всего его творчества в целом. И в данном отношении он, по нашему убеждению, следует в фарватере лучших традиций классической европейской реалистической литературы прошлого времени, соблюдает преемственность поколений, идущих от работ Чарльза Диккенса, Оноре де Бальзака и других.

В качестве одного из ярких примеров, на наш взгляд, иллюстрирующих решение социально-идеологических проблем на материале романа «Сила и слава», взята словесная пикировка между лейтенантом и священником. Лейтенант в своих суждениях о людях и мире опирается на материалистическую картину мира. Как и падре, лейтенант человек неравнодушный, его мучают людские страдания,

мировая дисгармония. Это может показаться парадоксальным, но у него «тоже есть свои идеи», которыми он, собственно, и оперирует в идеологическом диспуте со священником. Основной причиной человеческих страданий лейтенант считает такие внешние социальные институты, как церковь, а политиков винит в несправедливом устройстве общества. Больше всего он ненавидит священников, которые оправдывают существующий миропорядок, якобы снимают с людей ответственность за совершенные злодеяния.

Лейтенант, ненавидящий идеологию религиозных проповедников, является сторонником революционного переустройства общества. Он считает, что существует одна на все времена справедливая форма общественного устройства – власть бедных. Ради этой «великой идеологической идеи» он готов пожертвовать собой, но и других принести в жертву. Мы рискнули сопоставить жизненные позиции лейтенанта и Раскольникова – героя «Преступления и наказания» Ф.М.Достоевского. Лейтенант, как и образ его предшественника, опирается только на логику, подходит к жизненным вопросам с позиций абстрактного рационализма. Фигура его, бесспорно, выдержана в духе реализма. Г.Грин с объективных позиций подходит к анализу поведения людей такого сорта, которые на словах борются за справедливость, но, как метко замечает священник, «не выпуская из рук револьвера».

Характерно, что полемика такого рода выходит за пределы собственно социально-идеологических проблем. Реформатор в литературе и культуре своего времени, Г.Грин смело разрывает штампованные рамки отображения характера, раскрываемого во всей сложности его взаимоотношений с обществом или конкретными людьми. Такого рода художественные картины наблюдаются и в романах «Суть дела», отчасти «Путешествия с тётушкой» и «Ценой потери». Они свидетельствуют о плавном и закономерном переходе социальных и идеологических проблем в мировые, то есть становятся общечеловеческими, данными на все времена.

В заключении даны выводы и обобщения, вытекающие из проведенного исследования. А именно, подчёркнуто, что творчество Грэма Грина сложное и противоречивое, а потому и неординарно воспринимаемое. И в XXI веке оно продолжает оставаться предметом споров и пристального интереса исследователей, привлекая внимание

своей многоплановостью, неоднозначным характером выведенных персонажей.

Несмотря на тот факт, что в английской литературе первой половины XX в. отчётливо не наблюдалось резкого разграничения между реализмом и модернизмом, в диссертации мы были склонны рассматривать творчество Г.Грина прежде всего как утверждение реалистической концепции гуманизации личности. Эта концепция, в свою очередь, существенно повлияла на выбор художественных приёмов во всех пяти романах («Тихий американец», «Наш человек в Гаване», «Комедианты», «Сила и слава», «Суть дела»). Более того, в рамках перечисленных произведений исследован ряд вопросов, связанных с их жанровой принадлежностью, композицией и сюжетом. Таким образом, апробируемый нами метод сравнительно-сопоставительного анализа романов Г.Грина предоставил возможность поставить во главу угла реалистический тип художественного мышления, следовательно, и поставленные задачи нашли своё последовательное отражение.

Основные положения диссертации нашли отражение в следующих статьях и тезисах автора:

1. Контрастная характеристика главных действующих лиц в романе Грэма Грина “Тихий американец” // Elmi Xəbərlər. Bakı: Azərbaycan Dillər Universiteti, 2012, № 2, s. 239-244
2. Английская литература после II мировой войны и реализм Грэма Грина / Achievement of High School. Материали за VIII Международна Научна Практична Конференция. Т. 18, Филологични науки. София: «Бял ГРАД-БГ» ООД, 2012, с. 52-54
3. Graham Greene as the greatest master of realism, mystery and fantasy / Science and Education. Materials of the III International Research and Practice Conference. Munich, Germany, 2013, v. I, p.355-356
4. Взаимовлияние реализма и модернизма в современной английской литературе // Elmi Xəbərlər. Ümummilli Lider H.Əliyevin 90 illik yubileyinə həsr olunmuş konfransın materialları əsasında xüsusi buraxılış. Bakı: Qərb Universiteti, 2013, № 2, s.114-119
5. Творчество Грэма Грина в зеркале критики (К вопросу о противоборстве реалистических и модернистских тенденций в романе «Наш человек в Гаване») // Humanitar elmlərin öyrənilməsinin aktual problemləri. Ali mətkəblərarası elmi məqalələr məcmuəsı. Bakı: Mütərcim, 2013, № 3, s.181-187
6. Абсурд ситуаций в атмосфере всеобщего страха (Грэм Грин «Комедианты») // Dil və Ədəbiyyat. Bakı: Azərbaycan Dillər Universiteti, 2013, № 3, s. 195-202
7. К вопросу о некоторых направлениях и новизне в послевоенной английской литературе». Filologiya məsələləri №6. Azərbaycan Milli Elmlər Akademiyası M.Füzuli adına Əlyazmalar İnstitutu. “Elm və təhsil”. Bakı-2013, s. 275-280
8. Истинная суть дела в романе Грэма Грина «Суть дела» // Вестник Запорожского национального университета. Филологические науки. Запорожье, 2013, № 1, с. 5-8
9. Реалистические особенности воплощения идеологических, социальных и мировых проблем в романе Грэма Грина «Сила и слава» // Filologiya məsələləri. Azərbaycan Milli Elmlər

Akademiyası M.Füzuli adına Əlyazmalar İnstitutu. Bakı: Elm və təhsil, 2014, № 6, s. 413-418
10. The Greeneland and Its Inhabitants / Baku World Forum of Young Scientists Collection of abstracts. Baku, 2014, pp. 63-64
11. Реалистическое мастерство в романах Грэма Грина «Путешествия с тётушкой» и «Ценой потери» // Filologiya məsələləri. Azərbaycan Milli Elmlər Akademiyası M.Füzuli adına Əlyazmalar İnstitutu. Bakı: Elm və təhsil, 2015, № 10, s. 446-449
12. Два типа колониальных романов (на примере творчества Р.Киплинга и Г.Грина) // Filologiya məsələləri. Azərbaycan Milli Elmlər Akademiyası M.Füzuli adına Əlyazmalar İnstitutu. Bakı: Elm və təhsil, 2016, № 11, s. 400-405

AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
AZƏRBAYCAN DİLLƏR UNİVERSİTETİ

Əlyazması hüququnda

ÜLVİYYƏ KAMRAN QIZI ALLAZOVA

# QREM QRİN REALİZMİNİN ƏSAS XÜSUSİYYƏTLƏRİ

5718.01 – Dünya ədəbiyyatı (ingilis ədəbiyyatı)

Filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

AVTOREFERATI

Bakı – 2017

Dissertasiya Qərb Universitetinin İngilis filologiyası kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: filologiya üzrə elmlər doktoru, professor
Qorxmaz Həsi oğlu Quliyev

Rəsmi opponentlər: filologiya üzrə elmlər doktoru, professor
Nailə Məhəmmədhüseyn qızı Sadıqova

filologiya üzrə fəlsəfə doktoru, dosent
Leyli Əliheydər qızı Əliyeva

Aparıcı təşkilat: Bakı Slavyan Universitetinin
Ədəbiyyat nəzəriyyəsi və dünya ədəbiyyatı kafedrası

Müdafiə ___________________ 2017-ci ildə saat _____ Azərbaycan Dillər Universiteti nəzdində elmlər doktoru və fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunan dissertasiyaların müdafiəsini keçirən D.02.081 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

Ünvan: AZ 1014, Bakı şəhəri, Rəşid Behbudov küçəsi, 134.

Dissertasiya ilə Azərbaycan Dillər Universitetinin kitabxanasında tanış olmaq olar.

Avtoreferat ____________________ 2017-ci il tarixində göndərilmişdir.

D.02.081 Dissertasiya Şurasının elmi katibi,
filologiya üzrə fəlsəfə doktoru,

dosent Həmidə Əhməd qızı Əliyeva

## İŞİN ÜMUMİ SƏCİYYƏSİ

*Mövzunun aktuallığı.* İngilis klassiki Qrem Qrin dünya ədəbiyyatında özünəməxsus yer tutur. Onun romanları bir çox dillərə tərcümə edilmişdir, yazıçı dəfələrlə Nobel mükafatı laureatı adına namizəd göstərilsədə, hakimiyyət strukturları ilə münasibətinin gərgin olması səbəbindən o, bu mükafatı ala bilməmişdir. Yazıçının qələmindən iyirmidən çox roman, ədəbi esse, publisistik qeydlər, şeirlər toplusu, avtobioqrafik nəsr və səyahət oçerkləri çıxmışdır. O, dramaturq, novelist və ssenarist kimi də özünü təsdiq etmişdir.

Qrem Qrinin yaradıcılığı fərqli nöqteyi nəzərlərdən araşdırılmışdır. Bəzi alimlər onun dünyagörüşünün dəyişkən və dolaşıq olduğu haqqında yazırdılar; digər tədqiqatçılar isə, yazıçının ideoloji və estetik mövqeyinin formalaşmasına istinad edərək, fikrimizcə, onun yaradıcılığında ekzistensial başlanğıca yanlış olaraq, daha çox diqqət yetirirdilər. XX əsr boyunca bu fikirlər dəyişsə də, ideoloji mahiyyət demək olar ki, dəyişməz qalırdı. Bizim müraciət etdiyimiz, Q.Qrinin ən yaxşı romanları modernist və realist xüsusiyyətlərin birləşməsini göstərir, və sözsüz ki, sonuncu üstünlük təşkil edir.

Yalnız bəzi hallarda, müəllif fərdin sosial tənhalığı probleminə müraciət edir, katolisizmə həddən artıq diqqət yetirir, və insanların bir-birini anlamamağından, digərlərini eşitmək istəməməsindən yazırdı. Adətən bu əsərlərdə realistik başlanğıc üstünlük təşkil edirdi. Göstərilən dilemmanın düzgün nisbəti, Q.Qrin yaradıcılığının ingilis və dünya ədəbiyyatında bir yazıçı-humanist kimi, rolu və əhəmiyyətinin müəyyən edilməsi, ilk növbədə seçdiyimiz mövzunun aktuallığını təşkil edir.

*Tədqiqatın obyekti.* Tədqiqatın əsas obyekti Q.Qrinin "Sakit amerikalı", "Havanada bizim adam", "Komediantlar", "Qüdrət və Şöhrət", "İşin mahiyyəti" romanlarıdır. Biz tədqiqat obyektinə ingilis yazıçısının bir sıra digər pritçaları, social-psixoloji, dini-siyasi xarakterli romanlarını da daxil etmişik. Biz qeyd edirik ki, Q.Qrin yaradıcılığının dramatikliyi "kapitalizm dünyasının qəmli hadisələri ilə" (Q.Anikin) bağlıdır.

*Tədqiqatın predmeti.* Tədqiqat işinin əsas predmeti Q.Qrin yaradıcılığının özünəməxsusluğu haqqında danışmağa imkan verən çoxsaylı bədii üsullar və ictimai-siyasi, dini-fəlsəfi problemləri özündə cəmləşdirən xüsusi süjet xətti tipidir. Qəhrəmanların tipləşdirmə problemi və bəzi alimlərin (P.Paliyevskiy, F.Narsulayeva, A.Fridmen) bu izaha

münasibəti də tədqiqatın predmetidir. Bizim mövqeyimizə görə, Q.Qrinin bəzi qəhramanlarının davranışındakı vicdanlılıq və hərəkətləri üçün məsuliyyət daşımaq hissi realistik baxımdan şərh edilir.

*Mövzunun işlənilmə dərəcəsi.* Müraciət etdiyimiz mövzu Azərbaycan filologiya elmində xüsusi tədqiqat obyekti olmamışdır. Qərbdə isə bu mövzuya M.Allen, M.Fransuaza, K.Allot, C.Atkins, C.Beyli, H.Bordman, A.Brier, U.Çeys, A. Fridman, D.Helza və digərləri müraciət etmişdirlər. Bu mövzunun öyrənilməsi sahəsində Rusiya alimləri V.İvaşeva, S.Filyuşkina, A.Anikst, A.Yelistratova, İ.Anisimov, T.Lanin, P.Paliyevskiy, N.Eyşiskina, Q.Anikin, L.Tanajko, V.Zorin, L.Kopelev, A.Lebedev və d. müəyyən iş görmüşlər.

Bu tədqiqatçıların hər birinin yazıçının yaradıcılığına fərdi yanaşması var. V.İvaşeva, Qrem Qrini ən yaxşı romanlarında siyasi satira ustası, Ç.Dikkens, U.Tekkerey və digərlərinin tənqidi realizminin ən yaxşı ənənələrinin davamçısı kimi təqdim edir. Sonralar V.İvaşevanın bu mövqeyi XX-ci əsrin sonu – XXI-ci əsrin əvvəllərində Rusiya tənqidçiləri, o cümlədən L.Kopelev, A.Anikst, B.Mayevskiy, A.Lebedev, N.Sergeyev, V.Zorin, S.Filyuşkina, L.Tanajko və d. tərəfindən dəstək tapır.

C.Mayers, R.Smit, R.Şarrok və başqa Qərbi Avropa ədəbiyyatşunaslarının tədqiqatlarının əhəmiyyətini yenidən qiymətləndirmək çətindir. Yuxarıda sadalanan alimlərin əksəriyyəti yekdilliklə yazıçının əsərlərində realistik tendensiyaların üstünlük təşkil etməsi, onun romanlarında sosial problemlərin qaldırılmasından yazırdılar.

Müəllifin ardınca, bir çox Qərbi Avropa tənqidçiləri onun əsərlərinin strukturuna xüsusi diqqət yetirərək, onları "ciddi" və "əyləncəli" romanlara bölürdülər. Bu sxem özü-özlüyündə müxtəlif janrları cəmləşdirə bilərdi: siyasi-dini əsərlərdən tutmuş, romantik sevgi hekayələrərinə qədər. Ən əsası isə o idi ki, ingilis yazıçısının əsərlərində realistik təmayüllər ön planda çəkilirdi.

Qeyd etmək lazımdır ki, Azərbaycan ədəbi-tənqidi fikrində Q.Qrinin yaradıcılığına həsr olunmuş monoqrafik işlərin, eləcə də elmi-kütləvi məqalə və araşdırmaların sayı xeyli dərəcədə azdır. Yalnız XX əsrin ingilis və ingilisdilli xalqların ədəbiyyatının tədqiqindən bəhs edən bir sıra dissertasiyaların ümumi konteksdində onun adına rast gəlmək olur. Bu sırada N.M.Əliyevanın "XX əsrin birinci yarısında ingilis roman janrının yenilənməsi problemi" (Bakı, 2014), M.A.Gərayzadənin "XX əsr dünya ədəbiyyatında «ovsun realizmi»" (Bakı, 2010) adlı namizədlik dissertasiyalarını və L.Ə.Mirzəyevanın "Rus və xarici ədəbiyyatda

şəxsiyyət və cəmiyyətin münaqişəsi və dəyişməsi problemi” (Bakı, 2014) adlı doktorluq dissertasiyasını göstərə bilərik.

Bir neçə tədqiqat işi XX əsrdə ingilis-azərbaycan əlaqələrinin öyrənilməsinə həsr olunmuşdur. Bunlardan N.A.Həsənovun “Ceyms Oldric və Şərq” (Bakı, 1996), N.F.Həsənovanın “İngilis neoromantizmi və azərbaycan romantizminin tipologiyası” (Bakı, 2004), E.Z.Səmədovun “İngilis ədəbiyyatı Azərbabycanda. İngilis-azərbaycan ədəbi əlaqələrinin problemləri” və s. kimi tədqiqat işləri diqqəti cəlb edir.

Azərbaycan alimlərinin müəyyən bir ingilis yazıçısının yaradıcılığına həsr olunmuş bir sıra dissertasiyalarında qaldırılan məsələlər Q.Qrinin də yaradıcılığını araşdırıcılara xatırladır. Məsələn: A.Q.Əliyeva “Cek Lindsey nəsrində tarixçilik və müasirlik problemi” (Bakı, 2005); V.S.Əliyeva “XX əsr ingilis ekzistensial romanında qəhraman axtarışları (Q.Qrin, K.Uilson, M.Srakın yaradıcılıqları əsasında)” (Bakı, 2012); Ş.İ.Abdullayeva “Con Apdaykın tetralogiyasının poetikası” (Bakı, 2006); A.Q.Musayeva “Virciniya Vulf nəsrində impressionizm” (Bakı, 2012). Əlbəttə, adı çəkilən bu dissertasiyalarda Q.Qrinin yaradıcılığı ilə bağlı ən vacib problemlərin əhatəli tədqiqi yoxdur. Buna baxmayaraq, Q.Qrinin müasirlərinin yaradıcılığının öyrənilməsinə həsr olunmuş bu tədqiqat işləri XX əsr ingilis və ingilisdilli ədəbiyyatının ümumi mənzərəsini yaratmaq baxımından da əlamətdardır.

*Tədqiqat işinin məqsəd və vəzifələri.* Dissertasiyanın əsas məqsədi Q.Qrinin adı çəkilən əsərlərində üstünlük təşkil edən realist tipli bədii təfəkkürün tədqiq olunmasıdır.

Bunun üçün dissertasiya işində aşağıda göstərilən elmi vəzifələrin həyata keçirilməsi nəzərdə tutulur:

– XX əsrin birinci yarısının ingilis ədəbiyyatında realizm və modernizm arasında kəskin sərhədlərin olmaması səbəblərini araşdırmaq;

– Q.Qrin dünyagörüşünün tarixi-fəlsəfi konsepsiyasının təyin etmək və bu konsepsiyanın adı çəkilən beş romanın bədii qurluşuna təsirini göstərmək;

– araşdırılan romalarda nəqletmənin strukturunu, quruluşunu müəyyənləşdirmək; realizm nöqteyi-nəzərindən insansevər şəxsiyyət konsepsiyasını təsdiq etmək.

– Q.Qrinin və onun həmfikirlərinin ingilis ədəbiyyatında müstəmləkə romanı janrına müraciətinin əsas səbəblərini öyrənmək;

– Q.Qrin yaradıcılığında modernist motivləri üstələyən realistik metodda kompozisiya və süjet xətti məsələlərini tədqiq etmək;

– Q.Qrin dünyagörünüşdə nikbin və bədbin baxışların nədən qaynaqlandığını müəyyənləşdirmək;

– bədii düşüncənin realistik tipinin ümumi təsvirini vermək;

*Tədqiqat işinin elmi yeniliyi.* Bu tədqiqatın elmi yeniliyi ondan ibarətdir ki, Azərbaycan filologiya elmində Q.Qrinnin "Sakit amerikalı", "Havanada bizim adam", "Komediantlar", "Qüdrət və Şöhrət", "İşin mahiyyəti" və s. romanlarında realistik düşüncə tipinin ciddi və obyektiv şəkildə öyrənilməsinə cəhd göstərilmişdir.

Əvvəlki tənqidi-monoqrafik ədəbiyyatda Q.Qrin irsinin tədqiqində bir çox hallarda təsvirçilik müşahidə olunurdu. Təqdim olunmuş dissertasiyada təsvirçilik elementləri minimuma endirilmişdir; bütün diqqət Q.Qrinin romanlarının müqayisəli təhlilinə yönəldilmişdir.

*Tədqiqat işinin metodu.* Qarşıya qoyduğumuz məqsədə nail olmaq üçün aşağıdakı metodlardan istifadə olunmuşdur:

1. ədəbi qəhrəmanların davranışındakı ayrı-ayrı fərdi faktların tipoloji ümumiləşdirilməsi üsulu;
2. Q.Qrin yaradıcılığı ilə bağlı əsas problemlər üzrə müqayisəli-tipoloji tədqiqat metodu;
3. müxtəlif xarakterli bəzi əlavə məlumatların dəqiq izah olunması üçün filoloji şərh üsülu.

*Tədqiqat işinin nəzəri əhəmiyyəti.* Tədqiqat işi Q.Qrin yaradıcılığına həsr olunmuş tədqiqat işlərini tamamlayır və genişləndirir. Dissertasiya işində əldə olunmuş nəticələr gələcək tədqiqatlar üçün modernizmlə realistik düşüncə tipinin müqayisəli şəkildə öyrənilməsi haqqında məlumatı daha da təkmilləşdirir. Q.Qrinin romanlarının təhlili zamanı, nəzəri baxımdan əhəmiyyət kəsb edən, bir sıra tipik formaların yaradılması qeyd olunmuşdur.

*Tədqiqat işinin praktiki əhəmiyyəti.* İşin praktiki əhəmiyyəti ondan ibarətdir ki, tədqiqatın əsas müddəaları və nəticələri Q.Qrinin əsərlərinin öyrənilməsində, filologiya və tərcümə fakültələrində Dünya ədəbiyyatından mühazirə kurslarında, eləcə də İngilis ədəbiyyatı tarixinin tədrisi üçün dərslik və dərs vəsaitləri hazırlanmasında istifadə edilə bilər.

*Müdafiəyə aşağıdakı müddəalar çıxarılır:*

1. Q.Qrin öz yaradıcığını "ciddi" və "əyləncəli" romanlara bölmüşdür. Bu sıralama şərti sayıla bilər. Çünki müəllifin "əyləncəli" adlandırdığı əsərlər bəzən dramatik və hətta faciəli xarakter daşıyır; onun öz interpretasiyasında "ciddi" adlandırılan romanlar isə əyləncə və detektiv

elementləri olan əsərlərə çevrilir. Lakin Q.Qrin romanlarının əksəriyyətində, ictimai-siyasi mövzular əks olunmuşdur;

2. Q.Qrin realizm və ekzistensializm arasında tarazlığı saxlamağa çalışırdı. Təbii ki, ingilis ekzistensialist naşirlərinin (A.Mördok, M.Spark, U.Qolding, K.Uilson) əsərləri bir sıra fərqləndirici xüsusiyyətlərə malik idi. Q.Qrin yaradıcılığında ekzistensiyanın daimi atributu olan mənəvi seçimin permanent vəziyyətinə elə bir ciddi göstəriş yoxdur. Ekzistensializm mahiyyət etibarı ilə cəmiyyətdən ayrılmış, təcrid olunmuş insan mövcudluğuna əsaslanır. Humanist və realist Q.Qrin üçün isə, belə bir mövqe tamamilə yad idi;

3. 1960-cı ildən başlayaraq bu günə qədər, Q.Qrinin bir sıra romanlarının arxitektonikası müxtəlif cür qiymətləndirilir, bəzi qəhrəmanların davranışı ilə bağlı elmi-tədqiqat vektoru dəyişirdi. Bununla belə, tənqidi baxış tədricən fərdin psixoloji dünyasının dərinliklərinə doğru inkişaf edir. Yazıçı sanki insan psixikasının gizli tərəflərini açmağa çalışır;

4. Zaman keçdikcə, Q.Qrin romanlarının təhlili prosesində, dünya tənqidçiləri iki hissəyə bölündü. Bəziləri Q.Qrin yaradıcılığının modernizm hüdudlarından kənara çıxmadığını guman edir; digərləri isə onu realizmin görkəmli nümayəndəsi olduğunu iddia edirdilər. Biz də ikinci nöqteyi nəzərlə razılaşaraq, Q.Qrini Avropa ədəbiyyatında realizm metodunun ən böyük təmsilçisi kimi tanıyırıq;

5. Q.Qrinin bəzi romanlarını fəlsəfi janra aid etmək düzgün olmazdı. Lakin, əsərlərdə biz tez-tez insan taleyi haqqında düşüncələrə rast gəlirik. Dissertasiyanın obyektini təşkil edən əsərlər, müəllifin müəyyən nəticə və ümumiləşdirmələrində kəskin süjet xətti və dinamizmi ilə fərqlənir;

6. Q.Qrinin "Qüdrət və Şöhrət", "İşin mahiyyəti" romanlarında tənha, hər şeylə maraqlanan, lakin həmişə qəmgin olan, insanların taleləri diqqət mərkəzindədir. Lakin yazıçı, təhqir olunmuş ləyaqətin ağrı-acısını heç vaxt özünə qapanma motivləri ilə müşayiət etmir, axtarışda olan şəxsiyyətin potensial imkanlarını qüssə-kədərlə boğmur.

*Tədqiqat işinin aprobasiyası.* Dissertasiya Qərb Universitetinin Ingilis filologiyası kafedrasında yerinə yetirilmişdir. Tədqiqat işinin əsas müddəaları ilə bağlı Respublika və Beynəlxalq səviyyəli konfranslarda məruzələr edilmiş, eləcə də Azərbaycanda və Ukraynada nəşr edilən nüfuzlu elmi jurnallarda məqalələr dərc olunmuşdur.

*Dissertasiya işinin quruluşu.* 178 səhifədən ibarət olan dissertasiya giriş, 2 fəsil, nəticə və istifadə olunmuş ədəbiyyatın siyahısından ibarətdir.

## İŞİN ƏSAS MƏZMUNU

*Girişdə* dissertasiya mövzusunun aktuallığı, məqsəd və vəzifələri əsaslandırılaraq müəyyənləşdirilir, tədqiqatın obyekti, predmeti və elmi yeniliyi dəqiqləsdirilir, onun nəzəri və təcrübi əhəmiyyəti, müdafiəyə çıxarılan müddəalar, eləcə də tədqiqatın yerinə yetirilməsində istifadə olunan metodika, tədqiqat işinin aprobasiyası təqdim olunur.

Dissertasiyanın birinci fəsli *"XX əsr ingilis ədəbiyyatında realizmin yeri"* adlanır və üç hissədən ibarətdir. Bu fəslin birinci yarımfəslində II Dünya muharibəsindən sonrakı dövrdə, ədəbi-bədii təfəkkürün əsas inkişaf mərhələlərinin ümumi təsviri və realizmlə əlaqəsi göstərilmişdir. Xüsusilə də vurğulanmışdır ki, İkinci Dünya Müharibəsi kimi, qlobal hadisə ingilis ədəbiyyatının inkişafına böyük təsir göstərmişdir. Bu zaman kəsimində, bir tərəfdən, modernizmlə müqayisədə realizm prinsiplərinin üstünlüyü qeyd olunur, digər tərəfdən isə, ədəbi cərəyanların fransız və alman ədəbiyyatında olduğundan, kəskin şəkildə fərqlənməsi verilmişdir. Belə ki, ədəbi-bədii təfəkkür baxımından ingilislərin mentaliteti də digər Avropa xalqları ilə müqayisədə tamamilə fərqli idi. Qeyd olunur ki, 1941-1945-ci illər müharibəsindən sonra İngiltərədə siyasi vəziyyətlə bağlı iki əsas meyar üzə çıxır. 1945-ci ildən Böyük Britaniya ədəbiyyatı və siyasəti bir-biri ilə sıx bağlı idi. İkinci Dünya Müharibəsi ölkənin dünya arenasındakı nüfuzunu azaltdı. Koloniyalarda baş qaldıran milli azadlıq hərəkatları bir vaxtlar qüdrətli Britaniya imperiyasını zəiflətdi. Sovet İttifaqının və onun müttəfiqlərinin II Dünya Müharibəsindəki qələbəsi siyasi arenada qarşıdurma yaratdı və "soyuq müharibəyə" səbəb oldu. Bu hadisələr O.Hakslinin əsərlərində ("Meymun və mahiyyət", "Düha və ilahə"), B.Şounun "xoşagələn" və "xoşagəlməz" pyeslərində, C.Pristlinin dramaturgiyasında, R.Oldinqtonun və S.Çaplinin romanlarında, H.Uelsin fantastikasında, C.Qolsuorsinin "Forsaytlar haqqında saga" böyük epopeyasında və s. öz əksini tapmışdır.

İngilis kübar cəmiyyətinin nümayəndələrinə xas olan snobizm, konformizm və hakimiyyətpərəstlik kimi mənfi cəhətlər geniş xalq kütlələrinin şüuruna gerçəkliyin təsvirinin realistik formalarda təsir etməsinə mane olurdu. İngilis cəmiyyətinin bədnam "ingilisliyindən", "mavi qan" mənsubiyyətindən hələ zamanında realist Çarlz Dikkens

yazırdı.[6] XX əsrin ortalarına aid digər ingilis yazıçılarının yaradıcılıqları da millətin xüsusi qürur predmeti olmuşdur.

Dissertasiya işinin giriş bölməsində qeyd olunduğu kimi, müharibədən sonrakı dövrdə ideoloji mübarizəyə daha çox diqqət ayrılmışdır. Əvvala, dərin psixologizm və fəlsəfi mahiyyətə malik sosial mühiti əks etdirməsi ingilis roman janrında baş verən müəyyən transformasiyadan (dəyişikliklərdən) danışmağa bizə əsas verir. Bu barədə, həmçinin, N.M.Əliyevanın "XX əsrin birinci yarısında ingilis roman janrının yeniləşməsi problemi" dissertasiyasında da oxumaq olar. Digər tərəfdən, məhz kütləvi və elitar ədəbiyyat və mədəniyyətlər arasındakı qarşıdurma indi aydın və açıq şəkildə özünü göstərir. XX əsrin ikinci yarısı ingilis ədəbiyyatı üçün belə fikir ayrılığı xarakterik idi. Rus, fransız və ya alman ədəbiyyatında bu mübahisə gözə çarpmırdısa da, əksinə, müharibədən sonra Britaniyada konservativ və islahatçı prinsiplərinin barışmaz mübarizə gərginliyi açıq və kompromissiz konfliktə gətirib çıxardı.

Birinci tərəfin nümayəndələri, öz əsərlərini forma və mənaca orijinal adlandırır və guya xalq kütləri ilə hərtərəfli əlaqədə olduqlarını iddia edirdilər. Onlara zidd mövqe tutan yazıçılar isə qeyd edirdilər ki, əslində birincilərin əsərləri təzələnmiş realizmindən başqa şey deyil. Bu məsələyə ciddi yanaşsaq, görərik ki, bizi maraqlandıran dövrə aid İngiltərə "kütləvi ədəbiyyatı" realizm meyarlarına cavab vermirdi. Lakin, Qrinin və digər adı çəkilən realist yazıçıların, ən yaxşı əsərləri bunun parlaq təcəssümüdür. İncəsənətdə realistik cərəyan nümayəndələri, "kütləvi ədəbiyyat" yazıçılarını qəti şəkildə pisləyirdilər. (Məsələn, C.Pristli aşağı dərəcəli detektiv və "casusluq" romanlarını "ucuz oxu" kitabları adlandırırdı). O yazırdı: "Göründüyü kimi, hazırda oxunan əsərlər bizi bəşəriyyətin əhəmiyyətsiz, lakin cihazların insandan daha əhəmiyyətli yer tutduğu casusluq dünyasına aparır".[7] Belə ki, müharibədən sonrakı Britaniyada "kütləvi ədəbiyyat" dövrü uzun sürmədi.

Və ya II Dünya müharibəsindən bir neçə il sonra İngiltərədə "Konkret poeziya muzası" adlı şair və yazıçıları birləşdirən dərnək yaradılmışdı. 1950-ci ilin ortalarında dəbdə olan bu dərnəyin nəzəriyyəçisi S.Bann idi. O, ingilis şairlərinin "Konkret poeziya. Beynəlmiləl antologiya" adlı şeir və hekayələr toplusuna geniş ön söz yazmışdır. Adından və üslub

---

[6] Мамедханова Н. Зарубежная проза II половины XX века. Литература Франции, Великобритании, Германии. Баку: БСУ, 2006, с. 39.

[7] Пристли Д. Избранное. М.: Правда, 1985, с. 311.

baxımından çox təmtəraqlı olan bu müqəddimə, əsərin əsas mənasını kənarda qoydu. Belə ki, nomenklatur sistemin yaradılması xətrinə forma və məzmun arasındakı vəhdət pozularaq, İngilis ədəbiyyatında yeni sintaksisin tətbiqi nəzərdə tutulurdu. İngilis ədəbiyyatında realistik qanaddan olan yazıçılar, bu yanlış "yeni söz" anlamına qarşı fəal çıxış edirdilər. Bu iddialı mədəniyyət nümayəndələrindən fərqli olaraq, Q.Qrinin romanları ilə yanaşı, A.Konan Doyl, A.Kristi, R.Kipling və başqalarının realistik hekayə və romanlarının əhəmiyyəti artmışdır.

Nəhayət, 1960-cı illərin əvvəlləri Ayris Mördok, Müriel Spark, Uilyam Qoldinq və Kolin Uilson kimi məşhur ingilis ekzistensialist yazıçıların yaradıcılığının yüksəlişi ilə yadda qaldı. Bəzi alimlər belə hesab edirlər ki, Q.Qrin özü də müəyyən dərəcədə bu cərəyana öz tövhəsini vermişdi. Məsələyə obyektiv yanaşsaq, şəxsiyyətin cəmiyyətdən təcrid olunması və mənəvi seçim problemlərinə öz əsərlərində toxunan bütün ekzistensialist yazıçıları bu mənada avtomatik olaraq, "kütləvililərə" aid etmək düzgün olmazdı. Lakin, qeyd etmək lazımdır ki, Q.Qrin və başqaları bir müddət ortodoksal ekzistensializm çərçivəsində qalsalar da sonradan bu ənənələrdən uzaqlaşa bildilər.

Bu fəslin ikinci yarımfəslində XX əsr ingilis romanında realizm və modernizm sintezindən danışılır. Q.Qrin yaradıcılığının təhlili ilə yanaşı, ruhən və mənaca bu iki əks cərəyanların nümayəndələrinin əsərlərinin əsasını təyin etmək lazım idı. Belə ki, realist yazıçılar, əsasən, xarakterin öyrənilməsi prosesində müşahidə, ilkin və dəqiq informasiyanın toplanması kimi, tədqiqat metodlarından istifadə edirdilər. Q.Qrin və digərləri isə, mövcud qanunauyğunluqları əks etdirməyə çalışırdı. Əbəs yerə o qeyd etmirdi: "Yazıçı bəzən göründüyü qədər də aciz deyil. Gümüş gülləyə bənzər gələm ölümünə məhv etməyə qadirdir".[8]

Məlumdur ki, ədəbi xarakterlərin həyat axtarışlarının, real həyəcanlarının və hisslərinin, hərəkətlərinin və düşüncələrinin, talelərinin məntiqi ardıcıllıqla və əlaqəli şəkildə verilməsi realizmin parlaq nümunəsidir. Qeyd etmək lazımdır ki, bu fikir L.E.Musayevanın "Rus və xarici ədəbiyyatda şəxsiyyət və cəmiyyətin münəqişəsi və dəyişməsi problemi" adlı doktorluq dissertasiyasının da leytmotivini təşkil edir. Öz növbəsində, modernist yazıçıların əsərlərində isə, adi təcrübi formalar, reallığın obyektiv qanunauyğunluqlarından uzaq, abstrakt şəkildə təsvir edilirdi. Bildiyimiz kimi, modernist yazıçılar səbəb-nəticə əlaqəsindən uzaq

---

[8] Лодж Д. Разные жизни Грэма Грина // Иностранная литература, 2001, № 12, с. 211.

idilər, yəni sübut, fərziyyə, ehtimallar və s. kimi ayrı-ayrı anlamlara məhəl qoymurdular.

Lakin, bununla belə, incəsənətdə bir birinə zidd tendensiyalarla yanaşı, müəyyən əlaqələrin də olması göstərilir. Bu əlaqələr nədən ibarətdir? Məsələn, U.Folkner modernizmdən realizmə doğru uzun, mürəkkəb və ağrı-acılı yol keçmişdi; "şüur axını" fəlsəfəsinin parlaq təbliğatçısı C.Coys isə, ənənədən uzaq yol keçmişdi (realizmdən modernizmə); M.Prust "İtirilmiş zaman axtarışında" romanında realist və modernist üsulları çox vaxt birləşdirilmiş halda verdiyindən, tədqiqatçılar onun hansı cərəyana üstünlük verdiyini müəyyən etməkdə çətinlik çəkirdilər. Bu baxımdan, tədqiqatın bu bölməsində realizmin və modernizmin bir-birindən kəskin şəkildə fərqlənmədiyi göstərilir. İngilis və ümumilikdə XX əsr dünya ədəbiyyatının bədii təcrübəsi (Q.Qrinin yaradıcılığı da daxil olmaqla) göstərir ki, mürəkkəb münasibətlər sistemində realizm və modernizm bir-biri ilə bağlı cərəyanlardır. Əlbəttə ki, ideoloji, siyasi və estetik baxımdan bu iki müxtəlif metodlar arasında ziddiyyətlər də var idi. Lakin eyni zamanda, onlar bəzən bir-birinə səmərəli təsir göstərmişdir. U.Folkner, C.Coys, M.Prust və digər yazıçıların yaradıcılığına gəldikdə isə, onların əsərlərində modernizm və realizmin sintetik vəhdəti gözə çarpır.

Qeyd olunanları nəzərə alaraq, biz belə bir nəticəyə gəldik ki, müharibədən sonrakı dövr İngilis ədəbiyyatında realizm (B.Şou, C.Qolsuorsi, H.Uels, C.Pristli və digərləri) əvvəlki illərin ən yaxşı ənənələrinə əsaslanaraq, yeni nəsil yazıçıları üçün münbit zəmin hazırlamışdır. Lakin, bununla yanaşı sonrakı illər ekzistensialism, avanqardizm və digər cərəyanlar da inkişaf etmişdir. Yeni nəsil İngilis yazıçılarından Qrem Qrin, Anita Brukner, İen Makyuen, Entoni Börces, Qrem Svift, Jon Faulzun və digərlərinin yaradıcılığında realist və modernist prinsiplərinin nisbəti aydın əks olunmuşdur. Tədqiqat işimizin birinci bölməsində qeyd olunduğu kimi, ekzistensialistlər A.Mördok, M.Spark və K.Uilson, avanqardistlər Devid Lodj, Anjela Karter, Antoniy Bayet, Martin Emis, eləcə də postmodernistlər Piter Akroyd və Julian Barns da bu yazıçıların müasirləri sırasına aid edilməlidir. Dissertasiyada qeyd olunur ki, Q.Qrin bu siyahıda layiqli yer tutur.

Tədqiqat işində bu sıradan olan A.Bruknerin ("Ailə və onun dostları"), İ.Makyuenin ("Zamanə uşağı"), A.Mördok ("Tor altında"), C.Pristlinin ("Təhlükəli dəyişiklik") əsərlərinin qısa təhlili verilir. Eləcə də,

dissertasiyada tarixi mövzunun inkişafına (Cek Lindsey və başqaları) diqqət yetirilmişdir.

Tədqiqatın birinci fəslinin ikinci bölməsində müharibədən sonrakı dövr İngilis ədəbiyyatında müstəmləkə romanının inkişafına xüsusi yer ayrılmışdır. Bu geniş problemin realizm ənənələrinə sadiq qalan, 1970-ci illərin bəzi yazıçıları tərəfindən seçilməsi və inkişaf etdirilməsi üzə çıxır. Müstəmləkə romanı janrının inkişafı E.Börcesin "Napoleon simfoniyası" və "MF" romanlarında xüsusilə uğur qazandı.

Müharibədən sonrakı dövr İngilis ədəbiyyatında müstəmləkə romanı janrının inkişafı məntiqi olaraq, işğal olunmuş ərazilərdə militarist qüvvələrin siyasətinin pislənilməsi zərurəti ilə bağlı idi. Təsadüfi deyil ki, Qrinin də ilk əsərləri məhz bu istiqamətdə yazılmışdır. "Sakit americalı" romanında müəllif müharibənin bütün formalarını rədd edir. Qan və ölümlə yanaşı, yazıçının mövqeyinə görə müharibələr yer üzündəki insanların taleyi üçün mənəvi məsuliyyətlə mürəkkəbləşdirilir. Bununla da əsərin əsas ideyasından baş qəhramanın xarakterinin dəqiq müəyyən edilməsi istiqamətində konseptual addımlar atılır. O qəhrəmanın ki, özünün dağıdıcı fəaliyyətində heç bir rəzalət hiss etmir, üstəlik "sakit həyat tərzini" həddən ziyadə şişirdir və gözə soxur. Bəlkə də elə buna görə avropalı tənqidçilərin əsərlərində yazıçının "Havanada bizim adam" romanı siyasi detektiv janrına aid edilirsə, "Sakit amerikalı" romanı adətən "əxlaq romanları" sırasına daxil edilir və elə bu yöndəndə araşdırılır.

Fikrimizcə, bu məqamı "XX əsr ingilis ekzistensial romanında qəhrəman axtarışları (Q.Qrin, K.Uilson, M.Sparkın yaradıcılığı əsasında)" adlı dissertasiyasında V.S.Əiyeva çox dəqiq araşdırmışdır. V.S.Əliyeva romanın qəhramanı haqqında yazır:

"Şəxsi mənfəətinə görə utancgətirən öhdəçilikləri qəbul edərək, o (O.Payl) ən əhəmiyyətsiz, xırda, adi şeyləri belə faciəvi və patetik formalara bürüyür; məsələn, özünü qabaqcıl ideya və baxışların davamçısı, həmçinin rəsmi dinin qatı düşməni, ancaq "təbii dinin" təbliğatçısı, ictimai fikri formalaşdırmaq iddiasında olan birisi kimi qələmə verir. Ancaq baş verən hər bir terror aktından sonra sudan quru çıxa bilir. Bu bir daha göstərir ki, yalan və ikiüzlülük xislətinə bürünmüş qəhrəman "özünü itirilmiş mənəviyyatın son həddinə çatdırır" (A.M.Zverev). Bununla da rus nəzəriyyəçi alimi insanlar arasında olan dağınıqlığa və onların düşüncə, söz və əməllərinin uyğunsuzluğuna işarə edir".[9]

[9] Алиева В. Поиск героя в английском экзистенциальном романе XX века (на материале творчества Г. Грина, К. Уилсона, М. Спарк). Дис. … канд. филол. наук. Баку, 2012, с. 52.

“Havanada bizim adam” romanında xarici kəşfiyyat orqanları tərəfindən törədilən cinayətlər göstərilir. Qeyd etmək lazımdır ki, müstəmləkə romanının realizmi mütərəqqi fikirli bir sıra Avropa tənqidçiləri tərəfindən zorakılığın tanınmasından ibarət idi. Onlar Britaniya və Amerika rəhbərliyinin xəyanətkar hərəkətlərini pisləyirdilər.

Qeyd olunur ki, ideya baxımından “Havanada bizim adam” əsəri müəyyən mənada Çingiz Abdullayevin “Mavi mələklələr” romanının fabulası ilə səsləşir. Əvvəla, janr paralelliyini görməmək burda mümkün deyil: hər iki kitab kəskin sosial pamfleti xatırladır. Ikincisi, hadisələrin baş verdiyi məkan təxminən eynidir: Q.Qrinin əsərinin mərkəzində Qərbin xüsusi tədqiqat idarəsidirsə, “Mavi mələklələr”də İnterpolun xüsusi dəstəsinin fəaliyyəti işıqlandırılır. Yəni ingilis və azərbaycan yazıçılarının diqqət mərkəzində planetin konkret regionunun kəşfiyyat və dövlət təhlükəsizliyi orqanıarı durur. Üçüncü məqam isə onunla bağlıdır ki, milli reallıqların itməsi səbəbindən Avropada hadisələrin qorxulu məcraya yönəlməsini göstərən hər iki roman siyasi detektivlərin parlaq nümunəsi kimi qarşımıza çıxır. Hər iki roman xəbərdarlıq kimi səslənir. Və nəticidə bütün məsuliyyət hərbi etikanın qayda-qanunlarını bilən, ona əməl edən insanların üzərinə düşür. Ç.Abdullayevin romanında öz işinə məsuliyyətli və insan adına ləyaqətlə yanaşan əfsanəvi kəşfiyyatçı Dronqo bu qəbildədir. Təsadüfi deyildir ki, romanın əsas məramı A.Sent-Ekzüperidən gətirilən bu iqtibasdan da bəlli olur: “İnsan olmaq hər şeyə cavabdeh olmaq deməkdir”.[10] Q.Qrinin romanında isə bu şəxs öz yolunu yalnız əsərin finalında tapan, daim düşünmək qabiliyyəti olan baş qəhramandır.

Qeyd etmək lazımdır ki, fərqli süjet xətti hər iki romanın əsasında “insan faktorunun” olmasına maneçilik törətmir. Romanların ətraflı müqaisəli tipoloji təhlili bilavasitə dissertsiyanın özündə verilmişdir.

Birinci fəslin iki bölməsində əsasən II Dünya Müharibəsindən sonra bədii fikrin inkişafının əsas istiqamətlərinin ümumi xüsusiyyətləri və Q.Qrin nəsrinin əsas məqamları verilmişdir. Bu baxımdan sonuncu bölüm bütünlüklə yazıçının realist hərəkatının aparıcı nümayəndəsi kimi, təsvir edilməsinə həsr olunumuşdur. Birincisi, Q.Qrin XX əsr İngilis ədəbiyyatının ən məhsuldar yazıçılarından biridir. İkincisi, o, müasirlərindən fərqli olaraq, bir sıra janrlarda çalışmışdır. O, iyirmidən çox romanın, çoxsaylı ədəbi esselərin, publisistik qeydlərin, şeir toplularının, avtobioqrafik nəsr əsərlərinin, səyahət oçerklərinin

[10] Абдуллаев Ч. Голубые ангелы. Роман. Баку: Язычы, 1992, с. 4.

müəllifidir. O, eləcə də dramaturq, novellaçı və ssenarist kimi də özünü göstərmişdir. Üçüncüsü, onun fəlsəfəsi o qədər bənzərsizdi ki, bir çox tədqiqatçılar onun əsərlərindəki modernizm, ekzistensialism və realizmin, sonuncunun aydın üstünlüyü ilə, orijinal simbioz yaradılması haqqında müzakirələr edirdilər.

1930-cu illərdən başlayaraq, Q.Qrin bir çox səyahətlər edir. Əyləncəli və ya populist olmayan bu səyahətlər, informativ xarakter daşıyırdı. Bu səyahətlər macəra axtarışı üçün deyildi. Bu, məlumat toplanması üçün nəzərdə tutulmuş, ciddi və əziyyətli iş idi. Bizim fikrimizcə, məhz bu səyahətlər ona realist yazıçı kimi, özünü təsdiq etməyə kömək etdi.

Rusiya, Azərbaycan və Avropa tədqiqatçılarının bəziləri Q.Qrinin əsərlərinin ekzistensializmə meylli olduğunu bildirirlər. Həqiqətən, Avropa ekzistensializminə xas olan həsrət, tənhalıq, təcrid olunma, qarşılıqlı etimadsızlıq motivləri qismən də olsa Q.Qrin əsərlərində mövcuddur. Lakin bu motivlər yazıçının bütün yaradıcılığını xarakterizə edən amillər deyil; yazıçı bu məsələyə bir problem kimi yanaşır, eləcə də bədii vasitələrin köməyi ilə təsvir edir. Aydındır ki, müəllifi narahat edən mövzuları müxtəlif nöqteyi nəzərlərdən təhlil edib, onlarda realizm və ya ekzistensializm əlamətlərini tapmaq olar. Məsələn, Q.Qrinin əksər romanlarında cansıxıcılıq və ya bəzi qəhrəmanların hərəkətsizliyi, insanların faciəli ixtilafına gətirib çıxarır. Bu əsərlərdə qəhrəmanların ideoloji baxımdan fikir ayrılıqlarına da rast gəlinir. Romanların bəzilərində, ("Komediantlar" romanı ən parlaq nümunə kimi verilə bilər) ekzistensial ağrı və kiçilmədən uzaq, lakin sosial vəziyyəti və ya rolunun mentaliteti üçün tipik olmayan qəhrəmanlar təsvir edilir.

Lakin, bununla belə tənqidi təhlil üçün seçdiyimiz Q.Qrinin ən yaxşı romanlarında realizmin əhəmiyyətli detalları vardır. Müəllif, şəxsiyyətin xarakterinin əsas xüsusiyyətlərini üzə çıxarmaq üçün, onu reallığın tipik şəraitində təsvir edir, və qəhrəmanı sanki "rentgen" şüaları altında işıqlandırır. Təsadüfi hadisələr üzündən deyil (XX əsr Avropa modernizmində bu tez-tez müşahidə olunurdu) məhz zəruriyyətdən yaranan xarakter konsepti üçün lazımi materialın seçilməsi, bütün estetik dəyərlərin meyarı əsas prinsipə çevrildi. Ekzistensialistlər dəfələrlə qayda-qanunun xaos vasitəsilə mümkün olduğunu qeyd edirdilər. Onların iddiasına görə, yeni ideyalara təkan vermək üçün xaos lazımdır, çünki dəqiq koordinat sistemində bəşəriyyət heç vaxt yaşaya bilməz. Belə bir ideyasız mövqe realist Q.Qrinin dünyagörüşünə tamamilə ziddir.

Xronologiya üzrə izləsək, yazıçının əqidəsi artıq mətbuatdakı ilk çıxışından ("İnsanın batili") göz qabağındadır. Əsərin adından göründüyü kimi, obraz sanki içəridən işıqlandırılır. Və 1940-1950-ci illərdən başlayaraq, tənqidçilər düzgün qeyd edirdilər ki, yazıçının bütün sonrakı əsərləri, demək olar ki, simvolik olaraq "danışan adlar" daşıyırdı. Bununla belə, S.Belza qeyd etdiyi kimi, belə "danışan adlar", əyləncəli intriqa ilə yanaşı bir qayda olaraq, tez-tez dərin psixoloqizmlə müşayiət olunurdu.

Birinci fəslin əvvəlində qeyd etdiyimiz kimi, Q.Qrin, ömrünün sonuna yaxın, şəxsən bütün əsərlərini "ciddi" və "əyləncəlilərə" bölmüşdür. Onların arasında fərq cüzidir, çünki oxucu Q.Qrin yaradıcılığında daima dinamik süjet xətti ilə üzləşir. Bir qayda olaraq, onun romanlarında maraqlı və dolaşıq intriqa baş qəhrəmanların öz həyatları və ya davranışları haqqında realistik konsepsiyalarla tamamlanır. Belə ki, yazıçının əsərlərinin şərti bölgüsünə baxmayaraq, tənqidçilər belə bir qənaətdədirlər ki, Q.Qrin "adi oxucu və intellektuallar tərəfindən eyni dərəcədə sevilən" yazıçıdır.

Bundan başqa, biz dissertasiyada Q.Qrini yalnız bir intellektual yazıçı kimi deyil, həm də düşüncəli filosof, müşahidəçi psixoloq və ortodoksal realist kimi, təqdim etməyə calışmışıq. Bu postulatın sübutu kimi, yazıçının erkən və yetkin dövrünə aid, yaradıcılığının ən fundamental romanları – "Sakit amerikalı", "Havanada bizim adam", və "Komediantlar" əsərləri təhlil edilmişdir. Bu, və digər əsərlərin süjet xəttləri planetin "qaynar nöqtələrində" baş verən real hadisələrə əsaslanırdı. Q.Qrin, heç şübhəsiz ki, insanları narahat edən situasiyaları təsvir edirdi. Adı çəkilən romanların müəllifi – realist yazıçının professional bacarıqları, milli-azadlıq hərəkatının üsyançılarına dərin rəğbət hissi ilə doludur. Bu rəğbət hissi heç şübhəsiz ki, hər zaman Avropanın ən yaxşı realist yazıçılarına yaxın olmuşdur.

İkinci fəsil *"1940-1960-cı illər İngilis ədəbiyyatında realizmin inkişafının əsas təmayülləri və Q.Qrin yaradıcılığı"* adlanır. Bu fəsil də üç hissəyə bölünür. Burada "Sakit amerikalı", "Qüdrət və Şöhrət", "İşin mahiyyəti" romanlarının müqayisəli təhlili verilmişdir. Lakin, işin gedişatında bu fəsilə Q.Qrinin digər əsərlərindən lazımi düzəlişlər edilmişdir.

İkinci fəslin birinci hissəsində, "ciddi" və "əyləncəli" romanların bəzi realistik aspektlərinə diqqət yetirilmişdir. Romanlar sadalanmış və müəllifin sıralamasına görə verilmişdir. Roman adlarındakı birinci hissələrin bir çox epitetləri qayda olaraq, danışan epitetlərdir. Belə ki,

Q.Qrinin özü də dəfələrlə qeyd etmişdi ki, "İnsanın batili" romanından sonra bir sıra digər əsərlərinə də, "danışan adlar" vermişdir. Lakin, yazıçı və ondan sonra tədqiqatçılar da, bəzi hallarda bu romanlarin daha dərindən təhlilinə, bəzən isə, dəfələrlə oxunmasına ehtiyac duyulduğunu vurğulayırdı. Bu hər hansısa izahlı lüğətdə oxuna biləcək ingilis dilinin bədii-təsviri vasitətələri deyildi. Onu da qeyd etmək lazımdır ki, "əyləncəli" romanlar heç də "yüngül oxu" janrına aid kitablar deyildi. Xüsusilə də bunu "ciddi" romanlar haqqında demək olmazdı! Həqiqətən də "ciddi" romanlarda mühüm, kəskin və aktual sosial-siyasi və ideoloji tərəflərin ifadə edilməsi bütünlükdə Q.Qrin realizminin qələbəsi idi.

Q.Qrinin bütün romanları geniş janr palitrası ilə fərqlənir. Belə ki, məsələn, yazıçının "Məni İngiltərə yaratmışdır" romanı avtobioqrafik xarakter daşıyır. "Qüdrət və Şöhrət", "İşin mahiyyəti" romanlarında isə müəllifin öz dini inanclarının (katolik inanclarının) əks-sədası hiss olunur. Lakin, Q.Qrinin katolisizmliyi onun iki növ romanında sözün hərfi mənasında qəbul edilə bilməz. Q.Qrinin bəzi ideoloji tərəddüdünü qabartmağa çalışan ədəbi qruplaşmalar, müəllifin katolikliyə meyilli olmasına narazılıq bildirirdilər. Lakin, zaman keçdikcə, katolik düşərgə yazıçının romanlarına qarşı xeyli soyudu və katoliklərin tənqidi hücumları azaldı. Digərləri Q.Qrini, bütpərəstlik dünyasını həddindən artıq parlaq və cəlbedici, eyni zamanda xristianları isə banal təsvir etməsinə görə günahlandırmağa başladılar. Bizim fikrimizcə, bu hesablaşmaların çoxunu ciddi qəbul etmək olmaz. Amma diqqətimizi çəkən odur ki, "ciddi" və "əyləncəli" romanların ifrat qiymətləndirmələri daha çox bu əsərlərin əsas ideyalarının daha yaxşı başa düşülməsi üçün yeni və maraqlı imkanlar açırdı.

Bundan başqa, Q.Qrin yaradıcılığın problematik birmənalı təsnifatı da bu bölmədə tədqiq olunur. Bu təsnifat, onun yaradıcılığının bədii cərəyanlara bölünməsinə əsaslanır. Biz, Q.Qrin yaradıcılığının əsas metodu kimi məhz realizm cərəyanının prinsiplərini göstərməyə çalışmışıq. Lakin, bu heç də onun əsərlərində tamamilə modernist motivlərinin olmaması demək deyil. Çünki Q.Qrin əsərlərinin bəzilərində modernizm əlamətləri, bəzi qəhrəmanlar isə pessimist fikirlər daşıyıcısıdır. Bu başa düşüləndir: onun səyahətlər coğrafiyası çox geniş idi; o, hətta yaşa dolduqda belə, bir çox səyahətlər edir və bu səyahətlər birbaşa onun əsərlərində öz əksini tapırdı.

Belə ki, 1930-cu illərin əvvəllərində, o, Vyetnam və ABŞ-da olmuşdur və bu təəsurat altında "Sakit amerikalı" romanını yazmışdır.

1930-cu illərin ortalarında, o, Meksikada olmuş və Latın Amerikası ölkələrinin “saxta ideologiyasını” “Muzdlu qatil” romanında təsvir etmişdir. Sonra Q.Qrin Liberiyaya səfərinin nəticəsi olaraq, “Xəritəsiz səyahət” və “Qanunsuzluq yolları” adlı iki kitab yazmışdır. Bu kitablar müəllifin, eləcə də Kuba, Vyetnam, Konqo, Argentina və digər ölkələrdə gördükləri əsasında ərsəyə gəlmişdirlər. 1940-cı ildə, Asiyada olan hərbi vəziyyətin müşahidələri əsasında, o, ən yaxşı romanını – “Qüdrət və Şöhrət” romanını yaratmışdır.

Müəllifin ideyalarının “ciddi” və “əyləncəli” romanlar arasında bölüşdürülməsi, təəssüf ki, bəzi burjua ideoloqlar tərəfindən mənfi qiymətləndirmələrə gətirib çıxartdı. Onların fikrincə, yazıçının bir çox ölkə və qitələrdə olması pessimist əhval-ruhiyyəyə səbəb olmuşdur. Bizim fikrimizcə, bu birtərəfli və qərəzli yanaşma idi, çünki tənqidçilər yazıçının əhval-ruhiyyəsindəki dəyişikliklərə “məntiqi” izah tapmağa çalışarkən, Q.Qrin romanlarının səciyyəvi realist xüsusiyyətləri barədə susurdular. Tədqiqatda, ilk növbədə, göstərilmişdir ki, bu tənqidçilər tərəfindən Q.Qrin yaradıcılığındakı pessimizm motivləri şişirdilmişdir, çünki onun “ciddi” və ya “əyləncəli” romanlarının demək olar ki, hər birinin əsasında insanın böyük potensialına sonsuz inam hissi vardır. İkincisi, bəzi Qərb tədqiqatçıları “şəxsi münasibətlərinə” görə, süni olaraq, Q.Qrin əsərlərinin mətnlərinə aid etmək istədikləri dekadentlik (mürtəce cərəyan) əslində həmin dövrün əhval-ruhiyyəsi idi. Lakin, söhbət ümumilikdə müharibədən sonrakı dövr İngiltərənin kütləvi əhval-ruhiyyəsindən getməlidir, həmçinin bu mentallığın yalnız bədii əsərlərdə deyil, həm də ədəbi tənqiddə də öz əksini necə tapmasındadır.

İkinci fəslin ikinci bölməsində, Q.Qrinin “Qüdrət və Şöhrət", “İşin mahiyyəti” romanlarının süjet xətti və kompozisiya xüsusiyyətləri tədqiq olunur. Bildiyimiz kimi, bəzi tənqidçilər bu məsələyə diqqət yetirmişdir. Məsələn, N.Jluktenko (1980-ci illər) Q.Qrinin bir çox romanlarının strukturunu ümumiləşdirərək, onların sistem vahidliyini bildirmişdir. Onun fikrincə, bu romanlar özünəməxsus kompozisiya vasitəsi ilə təsvir edilmiş, kainatın ümumi mənzərəsi, əsasən tarixi reallığın vahid prinsipi üzərində qurulmuşdur. Tədqiqatçı-alim, bu romanların fərdin mənəvi seçiminə yönəlmiş, eyni konflikt tipi ilə fərqləndiyini qeyd edir. Q.Qrin yaradıcılığında qaldırılan fəlsəfi problemlərin sehri, “fərdi təcrübənin heyrətamiz gerçəkliyində, və eyni zamanda hər bir qəhrəmanın qəlbindəki mürəkkəb mənəvi mübarizə hekayəsinin hərtərəfli, bəşəri əhəmiyyətindədir”. N.Jluktenko, Q.Qrinin demək olar ki, bütün əsərlərinin

ümumi kompozisiya modelini göstərir, və bu modeli “konrad” modeli adlandırırdı.

On il sonra (1990-cı illər), Q.Qrin romanlarının poetikası və kompozisiyası məsələlərinə S.Filyuşkina müraciət etdi. “Q.Qrinin bədii sistemində ədəbi alluziyalar və reminissensiyalar” adlı monoqrafiyasında o, Q.Qrinin əsərlərinin bəzilərində daxili strukturunun özünəməxsusluğunu qeyd edirdi. S.Filyuşkina, xüsusilə vurğulayırdı ki, Q.Qrin, təsvir etdiyi situasiyalarda ümumiləşdirmələr apararaq, insan davranışını müəyyən modelə cəmləşdirir və özünəməxsus qəhrəmanlar tipini yaradır. Tənqidçi, belə bir nəticəyə gəlir ki, “burada müəllif tipləşdirmənin xüsusi növündən istifadə edir, yəni bu heç də Balzakın bizə anlatdığı Rastinyakdan, onun ictimai vəziyyətində olan minlərlə gənclər nə edərdisə, o, da onu etdi tipləşmə növündən fərqlidir. Fransız realistindən fərqli olaraq, Q.Qrin, xüsusi faktı ümumi qanunauyğunluq çərçivəsinə salmaq istəyir, lakin, psixoloji durumun davranış modelini yaradır.” Bundan başqa, S.Filyuşkina, Q.Qrin romanlarının əksəriyyətinin kompozisiyasında reallığın zaman kəsiminə görə, alluziyalar və reminissensiyaları bir üsul kimi, genişləndirir. Tədqiqatçı, o cümlədən, təsvir olunan real hadisələri dünya tarixinin mədəni və ideoloji kontekstinə uyğunlaşdıraraq, aydın şəkildə xarakterizə edir.

Jluktenko və Filyuşkinanın dəyərli fikirlərini nəzərə alaraq, biz, Q.Qrinin “Qüdrət və Şöhrət", “İşin mahiyyəti” romanlarının süjet xətti və kompozisiyasının xüsusiyyətlərini əhatə edən, öz modelimizi (və ya sxemimizi) yaratmaq istədik. İlk növbədə, situasiyaların və bəzi bədii detalların seçilməsi əsasında, müəllifin mövqeyini təyin etməyə çalışdıq. Hər bir detal, əsasən də, oxucu təsəvvürünü gücləndirmək üçün nəzərdə tutulmuş belə xüsusiyyətlər, ədəbi realiyaya çevrilir.

Real süjet və kompozisiya modelinin, həmçinin, reallığa uyğun təsvirin yaradılması üçün, mükəmməl dialoq texnikasından (sovet dövründəki tənqidçilərdən fərqli olaraq) uzaqlaşmaq lazım idi. Q.Qrin, öz zamanının universal xarakter daşıyan, ən mühüm və aktual məsələlərini vurğulamaq istəyirdi. Məhz bu da, yazıçının əsas məqsədi idi.

Bizim fikrimizcə, Q.Qrin universaliyaları texniki vasitələrlə yaradılmır. Q.Qrin yaradıcılığının əsas xüsusiyyəti yazıçını və bütün bəşəriyyəti narahat edən, mənəvi və etik problemlərin qaldırılması ilə səciyələnir. Q.Qrinin “Qüdrət və Şöhrət", “İşin mahiyyəti” romanlarında, ilk növbədə kəskin müasir sosial konfliktlər qaldırılır. Bundan başqa, Q.Qrinin əsərlərində təhkiyə situativ başlanğıcla xarakterizə olunur. Yəni,

ədəbi qəhrəmanların davranış modeli, müəllifin, onların taleyinə müraciəti əsasında qurulur.

Məsələnin texniki tərəfi isə ondan ibarətdir ki, adı çəkilən əsərlərdə kompozisiya fraqmentar xarakter daşıyır. Başqa sözlə desək, "Qüdrət və Şöhrət", "İşin mahiyyəti" romanlarında və bir sıra digər əsərlərində rast gəldiyimiz, təhkiyənin bir neçə epizodlara, qəhrəmanların tale və daxili aləminin özünəməxsus fraqment-oçerklərə bölünməsi kimi, Q.Qrinin, süjet xətti və kompozisiya baxımından, istifadə etdiyi sevimli xüsusiyyətlərindəndir.

Belə bir təəssurat yarana bilər ki, biz bununla realist yazıçıların deyil modernistlərin fikirlərinə əsaslanırıq. Lakin, bu heç də belə deyil. Məsələ ondadır ki, fraqmentarlığın da fərqli cəhətləri var. Məlumdur ki, modernizmin bütün növləri və modifikasiyaları realistik bədii düşüncə tərzinə əsaslanır. Təhkiyənin belə parçalara, hissələrə bölünməsi də "fraqmentarlığa" gətirib çıxaran amillərdəndir. Lakin, modernizmdə bu istiqamətlər birtərəfli olduğundan, oxucunun diqqətini cəlb edən kainatın ümumi mənzərəsi deformasiyaya uğramış olur, süjet xətti isə ayrı-ayrı "fraqmentlərə" "bölünür". Bəzi hallarda belə təhkiyə stil ağırlığına gətirib çıxarır.

Realistik təhkiyədə isə fraqmentarlıq tamamilə başqa məqsəd daşıyır. Yuxarıda adı çəkilən Q.Qrinin romanları struktur baxımından əlaqəlidir. Bizim fikrimizcə, bir ümumi qayda olaraq, müəllif tərəfindən əsərlərdə bəzi mətnlərin düzgün yerləşdirilməsi, xüsusi bacarıq tələb edir. Bu isə tarixi və sosial problemləri qaldıran, həm rus, həm də Avropa postmodernizminə şamil edilə bilər. Başqa sözlə desək, ümumi kompozisiyanın və müxtəlif fraqmentlərin ilk baxışdan dağınıq olması, demək olar ki, həmişə yazıçı təsvir etdiyi obrazların dəyişkən ideya axtarışlarından, onların qeyri-sabit psixoloji durumundan irəli gələn amillərdəndir. Dissertasiyada, "Qüdrət və Şöhrət", "İşin mahiyyəti" romanlarının mətnlərindən gətirilmiş, bir neçə nümunədə bu fikir öz təsdiqini tapır.

Dissertasiyanın (2.3) yekun hissəsinin əsas vəzifəsi, Q.Qrinin adı çəkilən romanlarında sosial, ideoloji və dünyəvi problemlərin realistik xüsusiyyətlərini göstərməkdir. Müasir rus və Avropa ədəbiyyatşünasları Qrin romanlarının ilk növbədə sosial-psixoloji və "Sakit americalı" romanından sonra yazılan əsərlərinin isə, sosial-siyasi xarakter daşıması fikri ilə razılaşırlar. Bundan başqa, demək olar ki, bütün tədqiqatçılar tərəfindən Q.Qrin yaradıcılığının dramatik xarakter daşıması da qeyd

olunur. İdeoloji, sosial və qlobal problemlər sonradan demək olar ki, onun bütün əsərlərində qoyulmuşdur. İvaşevanın 1960-1970-ci illərdəki tədqiqatlarında Q.Qrin əsərləri əsas diqqət obyektidir. 1980-ci illərdə Q.Anikin V.İvaşeva ilə həmfikir olaraq, Q.Qrinin əsərlərini realizm cərəyanına aid edir. Rus tənqidçiləri V.İvaşeva və Q.Anikin, qeyd edirlər ki, Q.Qrin, realist yazıçı olaraq, öz romanlarında "kapitalizmin qaranlıq dünyasının şəraitində" dramatik kolliziyaları göstərməyi bacarmışdır.

V.İvaşeva, Q.Anikin və bir sıra digər tədqiqatçıların ardınca, 1990-cı illərdə S.Filyuşkina da qeyd edirdi ki, erkən yaradıcılığına və eləcə də ömrünün sonuna aid əsərlərində dəfələrlə müraciət etdiyi sosial və ideoloji problemlər, onun bir daha realizm cərəyanına aid olduğunu göstərir. Müasir ingilis tənqidçisi Roulend Smit də, diqqət yetirmişdir ki, Q.Qrinin bir sıra romanlarının vətənpərvərlik mövzusu aydın şəkildə duyulur, aktual sosial və ideoloji məsələlər qaldırılır. R.Smit "Qorxu nazirliyi", "İşin mahiyyəti", "Eşq macərasının sonu" kimi, əsərləri nəzərdə tuturdu. Belə ki, «A People's War in Greeneland» tədqiqat işində o, yuxarıda adı çəkilən romanlarda və digər əsərlərdə ictimai-siyasi və ideoloji kontekstin nə qədər əhəmiyyətli olduğu haqqında yazır. R.Smit qeyd edir ki, müharibədən əvvəlki nəsrlə müqayisədə, 1945-1955-ci illərə aid romanlarda, ətraf mühitin "kompromislik və dağınıqlığını xarakterizə edən hisslər" daha dəqiq əks olunur. Bu fikirlər, müharibə dövründə və müharibədən sonrakı ilk illərdə yazılmış, "Qorxu nazirliyi", "Qüdrət və Şöhrət" romanlarında öz əksini tapmışdır. Adı çəkilən əsərlərin yaranma tarixi, yəni 1940-cı ilin iyun ayından, növbəti bahara qədərki dövrdə Britaniya həyatı canlanma və eyni zamanda, həyəcan hissi ilə səciyələnir. Müharibədən sonra yazılan romanlarda aktiv fəaliyyət və həyəcan, özünə inam hissinin itirilməsi ilə əvəz olunur.

Dissertasiyanın bu bölümündə, eləcə də, "oxucunun sosial təcrübəsinin artması" məsələsi ətrafında gedən, mübahisələr haqqında danışılır. Q.Qrinə görə, yazıçını insanlarda (ədəbi qəhramanlarda) maraqlandıran onun sosial mənşəyi deyil. Əslində yazıçı, ədəbi qəhramanın sosial-tarixi mənşəyindən qat-qat yuxarıda durmasını şərtləndirən səbəbləri təyin etmək istəyir. Beləliklə, belə bir nəticəyə gəlmək olar ki, Q.Qrin təhkiyəsinin lakonikliyi ilk növbədə, bütövlükdə onun yaradıcılığının realistik istiqaməti ilə bağlıdır. Bu baxımdan, bizim fikrimizcə, Q.Qrin, öz yaradıcılığında Çarlz Dikkens, Onore de Balzak və digərlərinin əsərlərindən gələn klassik Avropa realist ədəbiyyatının ən yaxşı ənənələrinə sadiq qalmışdır.

Bizim fikrimizcə, Q.Qrin yaradıcılığında sosial-ideoloji problemlərin həllini əks etdirən, ən yaxşı nümunələrindən biri də “Qüdrət və Şöhrət” romanında leytenantla keşiş arasında baş verən mübahisədir. Leytenant, insanlar və dünya haqqındakı düşüncələrində dünyanın materialist mənzərəsinə arxalanır. Müqəddəs ata kimi, leytenant da insanlara biganə qala bilmir, insan əzabları, dünyadakı qlobal disharmoniya onu narahat edir. Bu paradoksal görünə bilər, lakin onun “da öz ideyalarını var”. Və, əslində, o, keşişlə ideoloji mübahisədə bunu aydın göstərir. İnsan əzablarının əsas səbəbini leytenant, kilsə kimi, xarıcı sosial institutlarda görür. Siyasətçiləri isə, cəmiyyətin ədalətsiz quruluşunda günahlandırır. O, mövcud dünya qanunlarına haqq qazandıran, guya cəmiyyəti nizama salan və insanları törədilən vəhşiliklərinə görə məsuliyyətdən qaçmasına, bağışlanmasına sövq edən, keşişlərə hamıdan çox nifrət edir.

Dini ideologiyanı təbliğ edənlərə nifrət hissi bəsləyən leytenant, cəmiyyətin inqilabi çevrilişin tərəfdarıdır. O, hesab edir ki, bütün dövrlər üçün yalnız bir ədalətli sosial quruluş forması var – o da yoxsulların hakimiyyətidir. Bu “böyük ideoloji fikir” naminə o, yalnız özünü deyil, başqalarını da qurban verməyə hazırdır. Dissertasiyada biz F.M.Dostoyevskinin “Cinayət və cəza” romanının qəhrəmanı R.Raskolnikov və Q.Qrinin “Qüdrət və Şöhrət” əsərindəki leytenantın həyat mövqeyini müqayisə etməyə çalışmışıq. Leytenant, eləcə də onun sələfi R.Raskolnikov, həyati məsələlərə yalnız məntiqə əsaslanaraq, mücərrəd rasionalizm mövqeyindən yanaşırlar. Əlbəttə, bu obraz, realizm ruhunda təsvir olunmuşdur. Ədalət naminə mübarizə aparan, bu tip insanların davranışının təhlilinə Q.Qrin, obyektiv mövqedən yanaşır. Əsərdə, keşiş leytenantı vəziyyətdən asılı olmayaraq, “tapancanı əlindən buraxmayan” insan kimi xarakterizə edir.

Səciyyəvidir ki, bu cür mübahisə müvafiq sosial-ideoloji problemlərdən kənara çıxır. Öz dövrünün ədəbiyyatı və mədəniyyətində islahatçı olan Q.Qrin, xarakter təsvirindəki möhürlənmiş çərçivədən cəsarətlə kənara çıxır, əsas qəhrəman və cəmiyyət arasında olan əlaqələri bütün mürəkkəbliyi ilə göstərməyə çalışır. Bu cür bədii mənzərələr “İşin mahiyyəti” romanında, bəzən isə “Xalam ilə səyahətlər” və “İtki naminə” əsərlərlərində müşahidə olunur. Bu əsərlərdə, sosial-ideoloji problemlərin səlis və müəyyən şəkildə, qanunauyğunluqla, dünyəvi, ümumbəşəri problemlərə çevrilməsi göstərilir.

*Nəticə*də tədqiqatın gedişində əldə olunan elmi-nəzəri müddəa və prinsiplər ümumiləşdirilmiş, Q.Qrin yaradıcılığının bəzi vacib məqamları

üzə çixarılmışdır. Yazıçının mürəkkəb və ziddiyyətli və bu səbəbdən də qeyri-adi dəst-xəttə malik olması xüsusi qeyd olunmuşdur. XXI əsrdə də onun yaradıcılığı öz çoxplanlılığı, yaratdığı personajların mürəkkəb xarakteri ilə tədqiqatçıların daim diqqət mərkəzində durur və bir sıra mübahisələrin predmeti olmaqda davam edir.

XX əsrin birinci yarısının ingilis ədəbiyyatında realizm və modernizm arasında kəskin fərqlər sezilməsə də, dissertasiyada biz Q.Qrin yaradıcılığında insan şəxsiyyətinin realist konsepsiyasının təsdiqinin şahidi olduq. Bu konsepsiya da, sözsüz ki, öz növbəsində, yazıçının bütün beş romanının ədəbi-bədii priyomlarının seçilməsinə təsir göstərmişdir ("Sakit amerikali", "Havanada bizim adam", "Komediantlar", "Qüdrət və Şöhrət", "İşin mahiyyəti"). Bundan əlavə, adı çəkilən əsərlərin janr xüsusiyyətləri, kompozisiya və süjet özəllikləri ilə bağlı bir çox məsələlərə də aydınlıq gətirilmişdir. Qeyd olunmuşdur ki, XX əsr romanında ideya problematikasının dərinləşməsi, təsvir predmetinin genişlənməsi Q.Qrin yaradıcılığından da yan keçməmişdir. Beləliklə, Q.Qrin romanlarının müqayisəli təhlili realist roman ənənələrinin, realizmə söykənən bədii düşüncə tərzinin onun yaradıcılığı üçün səciyyəvi olduğunu söyləməyə bizə əsas verir.

Dissertasiya ilə bağlı aşağıdakı tezis və məqalələr çap olunmuşdur:

1. Контрастная характеристика главных действующих лиц в романе Грэма Грина "Тихий американец" // Elmi Xəbərlər. Bakı: Azərbaycan Dillər Universiteti, 2012, № 2, s. 239-244
2. Английская литература после II мировой войны и реализм Грэма Грина / Achievement of High School. Материали за VIII Международна Научна Практична Конференция. Т. 18, Филологични науки. София: «Бял ГРАД-БГ» ООД, 2012, с. 52-54
3. Graham Greene as the greatest master of realism, mystery and fantasy / Science and Education. Materials of the III International Research and Practice Conference. Munich, Germany, 2013, v. I, p.355-356
4. Взаимовлияние реализма и модернизма в современной английской литературе // Elmi Xəbərlər. Ümummilli Lider H.Əliyevin 90 illik yubileyinə həsr olunmuş konfransın materialları əsasında xüsusi buraxılış. Bakı: Qərb Universiteti, 2013, № 2, s.114-119
5. Творчество Грэма Грина в зеркале критики (К вопросу о противоборстве реалистических и модернистских тенденций в романе «Наш человек в Гаване») // Humanitar elmlərin öyrənilməsinin aktual problemləri. Ali məktəblərarası elmi məqalələr məcmuəsı. Bakı: Mütərcim, 2013, № 3, s.181-187
6. Абсурд ситуаций в атмосфере всеобщего страха (Грэм Грин «Комедианты») // Dil və Ədəbiyyat. Bakı: Azərbaycan Dillər Universiteti, 2013, № 3, s. 195-202
7. К вопросу о некоторых направлениях и новизне в послевоенной английской литературе». Filologiya məsələləri №6. Azərbaycan Milli Elmlər Akademiyası M.Füzuli adına Əlyazmalar İnstitutu. "Elm və təhsil". Bakı-2013, s. 275-280
8. Истинная суть дела в романе Грэма Грина «Суть дела» // Вестник Запорожского национального университета. Филологические науки. Запорожье, 2013, № 1, с. 5-8
9. Реалистические особенности воплощения идеологических, социальных и мировых проблем в романе Грэма Грина «Сила и слава» // Filologiya məsələləri. Azərbaycan Milli Elmlər

Akademiyası M.Füzuli adına Əlyazmalar İnstitutu. Bakı: Elm və təhsil, 2014, № 6, s. 413-418

10. The Greeneland and Its Inhabitants / Baku World Forum of Young Scientists Collection of abstracts. Baku, 2014, pp. 63-64
11. Реалистическое мастерство в романах Грэма Грина «Путешествия с тётушкой» и «Ценой потери» // Filologiya məsələləri. Azərbaycan Milli Elmlər Akademiyası M.Füzuli adına Əlyazmalar İnstitutu. Bakı: Elm və təhsil, 2015, № 10, s. 446-449
12. Два типа колониальных романов (на примере творчества Р.Киплинга и Г.Грина) // Filologiya məsələləri. Azərbaycan Milli Elmlər Akademiyası M.Füzuli adına Əlyazmalar İnstitutu. Bakı: Elm və təhsil, 2016, № 11, s. 400-405

Ulviyya Kamran Allazova

# THE MAIN FEATURES OF GRAHAM GREENE'S REALISM

## Summary

This thesis touches upon the creative work of the English writer, Graham Greene (1904-1991). The majority of scientists of the last century mentioned him as a modernist writer and an adherent of the existential trend in English and World literature. However, we, in our turn, are trying to prove that the streams of realism are more clearly demonstrated in the works picked out for the current thesis.

The main objects of the study are the following novels by Greene: "The Quiet American", "Our Man in Havana", "The Comedians", "The Power and the Glory", "The Heart of the Matter".

The purpose of this thesis is to examine the realist type of thinking in the above mentioned novels by Greene.

The thesis consists of an introduction, two chapters, a conclusion and a list of the used literature.

The first chapter entitled "The Place of Realism in the English Literature of the 20th Century" consists of three sub-chapters. English literature of realism after World War II is characterized in this chapter. The works of some writers, such as Show, Priestley and Galsworthy are highlighted here. They all were well-known realists who reflected socio-political problems.

The practice of 20$^{th}$ century World literature convincingly proves that there has always been a complex relationship between realism and modernism. Certainly, there have also been contradictions between these trends. However, they have enriched and fruitfully influenced each other.

Three novels "The Quiet American", "Our Man in Havana" and "The Comedians" are analyzed from the realist criteria. The plots of these novels were based on real events taking place in "conflict spots" of the world. Greene described situations that mankind was concerned about.

The second chapter is entitled "The Major Trends in the Development of Realism in English Literature during the 40s, 50s and 60s and Graham Greene's literary creation". It's based on the novels "The

Power and the Glory" and "The Heart of the Matter" and consists of three sub-chapters.

It studies the novels divided by Greene into so-called "entertainment" and "serious novels". However, we tried to prove that the division was more arbitrary than fact.

The novels "The Power and the Glory" and "The Heart of the Matter", that have been marked as having a singularity of plot and extraordinary composition, are examined here. The major goal is to reveal these features through comparative analysis. Social, ideological and world issues are set apart in these novels, nevertheless, during the analysis we found that these issues are closely linked.

The conclusion summarizes the basic results of the investigation.

Çapa imzalanıb: 31.05.2017.
Format: 60x84 1/16. Tiraj: 100.

«Mütərcim» Nəşriyyat-Poliqrafiya Mərкəzi
Bakı, Rəsul Rza küç., 125
tel./faks 596 21 44
e-mail: mutarjim@mail.ru